

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 94 (24.231)

*26 may 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya işgüzar səfərə gedib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə mayın 25-də Moskvaya işgüzar səfərə gəlib.

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə qonaq qismində iştirak edib.

Dövlətimizin başçısı iclasda çıxış edib.

* * *

Mayın 25-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Ali Avrasiya İqtisadi Şurasının üzv, müşahidəçi və dəvət olunmuş ölkələrin dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.

Görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Hörmətli həmkarlar.

İlk növbədə, Sizi bir daha salamlamaq və Azərbaycan Prezidentinə Avrasiya İqtisadi Birliyi çərçivəsində bizim bugünkü görüşümüzə qoşulması qərarını qəbul etdiyi üçün təşəkkür etmək istəyirəm. Artıq deyildiyi kimi, formal olaraq qonaq qismində, lakin, həqiqətən, İlham Heydər oğlu haqlıdır, bu, çox şərti addır, çünki Azərbaycan ilə Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsi və xarakteri ciddi, dərin məna daşıyır. İqtisadi-ticari əlaqələr ardıcıl şəkildə inkişaf edir və bütün xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi istiqamətində irəliləyir. Mən çox istərdim ki, gələcəkdə də belə davam etsin, çünki regional əməkdaşlıq potensialı çox yüksəkdir.

İkitərəfli əsasda götürüldükdə, ümumilikdə, Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq.

Bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir. Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır. O da yaxşı məlumdur ki, biz Rusiyada bu yubileyi layiqincə qeyd etdik. Dövlət Dumasında və Federasiya Şurasında sərgilər keçirildi, televiziyada sənədli filmlərin nümayişi oldu. Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən Moskva-Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu.

Bunlar mənim əvvəldə söyləmək istədiklərimdir və mətbuat çıxandan sonra biz başqa məsələlər barədə də danışarıq. Buyurun.

***

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Avrasiya İqtisadi Birliyinin sammitinə dəvətə görə bir daha təşəkkürümü bildirirəm.

Bu gün qeyd olunduğu kimi, mən bu təşkilatın sammitində ilk dəfədir, iştirak edirəm. Baxmayaraq ki, biz artıq həmkarlarla fikir mübadiləsi aparmışıq, həm Müstəqil Dövlətlər Birliyinin, həm də digər beynəlxalq təşkilatların platformalarında və əlbəttə, ikitərəfli formatda müntəzəm işləyirik.

Heydər Əliyevin xatirəsinə göstərilən yüksək hörmətə görə təşəkkür etmək istərdim. Biz bunu yüksək dəyərləndiririk, Azərbaycanda bütün bunları çox yaxşı bilirlər. Siz qeyd etdiyiniz kimi, yubiley tədbirləri həm Moskvada, həm dövlət hakimiyyət təsisatlarında, həm də regionlarda keçirilib. Onu deməliyəm ki, Heydər Əliyev və Siz, Vladimir Vladimiroviç, Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoymusunuz. Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk. Siz qeyd etdiyiniz kimi, ötən ilin əvvəlində biz Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladıq və icra edirik. Bu bizim münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəddir.



Əlbəttə, biz bu gün regional məsələlərdən də danışacağıq. Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın, nəhayət, sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik.

Vladimir Vladimiroviç, bir daha ümid edirəm ki, bu gün biz üçtərəfli formatda da iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atacağıq.

İkitərəfli gündəliyə gəlincə, o, kifayət qədər genişdir. Onu ətraflı nəzərdən keçirəcəyik. Dəvətə görə bir daha sağ olun.

**AZƏRTAC**

## Naxçıvanda Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfransı keçirilib

Mayın 25-də "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfransı keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, dahi şəxsiyyətə ehtiram ifadə ediblər.

Konfrans Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin və Ulu Öndər Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müasir, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinin silsilə tədbirlərlə ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yad edildiyini, elmi-praktiki konfransların keçirildiyini, Onun irsinin öyrənildiyini deyib. Bildirilib ki, Ümummilli Liderin həyat və fəaliyyəti hər zaman Azərbaycan xalqına və dövlətinə xidmət etmək olub. Səlahiyyətli nümayəndə dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin hər iki dövründə çətinliklərə baxmayaraq, Azərbaycanın inkişafı istiqamətində gördüyü işlərdən, milli ruhlu kadrların yetişməsindən, 1930-cu illərdə repressiya qurbanına çevrilən, "xalq düşməni" kimi damğalanmış mədəniyyət xadimlərimizin bəraət almasındakı fəaliyyətindən ətraflı bəhs edib. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının ağır vəziyyətdə olmasından, mənfur qonşularımızın keçmiş Dağlıq Qarabağda olduğu kimi, Naxçıvana da hücumlar təşkil etməsindən danışan Fuad Nəcəfli bu vəziyyətdə Naxçıvan Muxtar Respublikasının xilaskarının məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin olduğunu vurğulayıb. Qeyd olunub ki, hələ o dövrdə muxtar respublikada təhsil sahəsində



*Ardı 2-ci səhifədə*

ciddi addımlar atılıb. 1991-1992-ci illərdə Naxçıvandan tələbələrin Türkiyə Respublikasındakı universitetlərə göndərilməsi işi təşkil olunub. Bu da dahi şəxsiyyətin nə qədər dərin, uzaqgörən siyasət apardığının nümunələrindən biri idi.

"Dahi şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqil dövlətimizin əsas dayaqlarını təşkil edir", – deyən səlahiyyətli nümayəndə bu dövrdə Naxçıvanın işğal təhlükəsindən qurtulması, bir sıra mühüm qərarların qəbul olunmasından, Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışının xalqımıza, Azərbaycana uğurlar gətirməsindən geniş danışıb, bu il mayın 10-da Şuşadan xalqa müraciəti zamanı ölkə Prezidenti cənab İlham Əliyevin söylədiyi ***"Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır"*** ifadəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, bu gün Azərbaycanda aparılan siyasət də məhz Ulu Öndər Heydər Əliyev siyasətidir. Bu siyasət Müzəffər Ali Baş Komandan tərəfindən uğurla davam və inkişaf etdirilir. Heydər Əliyev Fondunun, başda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dünyanın müxtəlif bölgələrində, dövlətlərində ümumbəşəri irs sayılan abidələrə olduqca diqqət və qayğı göstərilməkdədir. Bu, əlavə olaraq Azərbaycana beynəlxalq arenada geniş imkanlar yaradır. Bundan yüz illər ötsə də, Azərbaycan xalqı Ümummilli Liderimizin irsini, fəaliyyətini, həyatını heç zaman unutmayacaq.









"İkinci dəfədir ki, gözəl diyar Naxçıvandayam", – deyən "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev fenomenal şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, uzaqgörən, praqmatik siyasətindən bəhs edib. Azərbaycanın bugünkü uğurlarının təməlində Heydər Əliyev ideyalarının və siyasətinin dayandığını bildirən Hafiz Paşayev diqqətə çatdırıb ki, əgər Ulu Öndər olmasaydı, biz firavan, azad, müstəqil Azərbaycanın bugünkü vəziyyətini görə bilməzdik. Dahi şəxsiyyətin əsasını qoyduğu dövlət və ordu quruculuğunun məntiqi nəticəsinə İkinci Qarabağ müharibəsində bir daha şahid olduq. Professor Ulu Öndərlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb, dahi liderin Amerikada keçirdiyi görüşlərdə Ermənistanın işğalçılıq siyasətini ifşa etməsindən, ölkəmizi uğurla tanıtmasından, təmsil etməsindən, ölkəmizə xarici investorların cəlbi istiqamətində gördüyü işlərdən, Ümummilli Liderin Azərbaycan-Amerika münasibətlərinin yaxşılaşmasında göstərdiyi səylərdən danışıb. Konfransın təşkilinə və dəvətə görə minnətdarlıq edən Hafiz Paşayev tədbirin universitetlər arasındakı əlaqələrin inkişaf etdirilməsində, müəllim-tələbə mübadiləsinin aparılmasında əhəmiyyətli olacağını vurğulayıb, müəllifi olduğu "Bir səfirin manifesti" və "Yüksəkliyə doğru" kitablarını "Naxçıvan" Universitetinə hədiyyə edib.



Daha sonra "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Mingəçevir Dövlət Universitetinin rektoru, dosent Şahin Bayramov və Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə çıxış ediblər. Çıxışlarda Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri, "Heydər Əliyev İli"nin işğaldan azad olunmuş ərazilərimizdə də qeyd olunması xüsusi vurğulanıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ərazi bütövlüyümüzü bərpa etməsini, ölkəmizin iqtisadi qüdrətini artırmasını və bütün sahələr üzrə inkişafını təmin etməsini Ümummilli Liderin siyasi kursuna sadiqliyi, bu yolu uğurla davam etdirməsinin nəticəsi kimi dəyərləndiriblər. Ümummilli Liderin 100 illiyinə həsr olunan elmi tədbirə böyük maraq göstərildiyi, ümumilikdə, konfransa 20 ali təhsil və elmi-tədqiqat müəssisəsindən 240-dan çox məqalənin daxil olduğu diqqətə çatdırılıb. Ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəlik institutunun yaradılmasının muxtar respublikanın inkişafında yeni mərhələnin əsasını qoyduğu qeyd edilib.

Sonra tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

Konfrans "ADA" Universiteti və "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən konsert proqramı ilə yekunlaşıb.

**"Şərq qapısı"**






## "Heydər Əliyev-2023" birgə döyüş atışlı taktiki təlim başa çatıb



Türkiyə Respublikasının Qars şəhərində keçirilən "Heydər Əliyev-2023" birgə döyüş atışlı taktiki təlim başa çatıb. Türkiyə Cümhuriyyətinin yaranmasının və Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən təlimdə iştirak edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları döyüş tapşırıqlarını uğurla yerinə yetirərək yüksək nəticələr göstəriblər.

"Heydər Əliyev-2023" birgə döyüş atışlı taktiki təlimi izləmək üçün Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Qars şəhərində səfərdə olub. Səfər çərçivəsində böyük öndər Mustafa Kamal Atatürkün və Ümummilli Lider Heydər Əliyevin Qars şəhərində ucalan abidələri ziyarət edilib.

"Heydər Əliyev-2023" birgə döyüş atışlı taktiki təlimdə əvvəlcə ərazidə qoşunların yerləşməsi, eləcə də mərhələlər üzrə icra olunacaq fəaliyyətlər və hərbi təyinatlı müasir silah və döyüş texnikaları haqqında məlumat verilib. Planla tanışlıqdan sonra təlimin döyüş atışlı mərhələsinə start verilib.

Tankların, piyadaların döyüş maşınlarının, artilleriya və tank əleyhinə bölmələrin heyətləri helikopterlərin dəstəyi ilə şərti düşmən mövqelərini tam dəqiqliklə məhv ediblər. Təlimə cəlb edilmiş snayperlər müxtəlif məsafədən praktiki atışları yerinə yetiriblər.

Böyük Öndər Mustafa Kamal Atatürkün və Ümummilli Lider Heydər Əliyevin portretlərinin, eləcə də hər iki qardaş ölkənin dövlət bayraqlarının açıldığı paraşüt atlayışı ilə təlimə yekun vurulub. Təlimdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Sonda xatirə şəkli çəkdirilib.

"Heydər Əliyev-2023" təlimində yüksək peşəkarlıq nümayiş etdirən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Araz çayı üzərindəki "Ümid" körpüsündən keçərək xidmət yerlərinə qayıdıblar.

**Kənan CƏLİLOV**

*Mayın 17-19-da Bakı Ekspo Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – “Caspian Agro” və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi – “InterFood Azerbaijan” sərgiləri keçirilib. Ümumilikdə, sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edib, 9 ölkə isə milli stendlərlə təmsil olunub. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak ediblər. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, xətti ilə 60-a yaxın sahibkar, ailə təsərrüfatçıları da istehsal etdikləri məhsulları həmin sərgilərdə nümayiş etdiriblər. Mayın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi sərgidə uğurla iştirak edən Kənd Təsərrüfatı, İqtisadiyyat nazirliklərinin əməkdaşları, sahibkarlar, ailə təsərrüfatçıları ilə görüşüb, görüşdə təəssüratlar bölüşülüb, fikir və təkliflər dinlənilib, aqrar sahənin inkişafı ilə bağlı qarşıda duran vəzifələrə dair tövsiyələr, tapşırıqlar diqqətə çatdırılıb.*

## Kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova: *“Sərgidə cənab Prezidentin Naxçıvan məhsullarına xüsusi diqqəti, önəmi naxçıvanlılar, təsərrüfatçılar, sahibkarlar üçün böyük stimuldur, dəstəkdir”*



Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova “Şərq qapısı” qəzetinə geniş müsahibəsində Bakı Ekspo Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – “Caspian Agro” və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi – “InterFood Azerbaijan” sərgilərinin Naxçıvan, naxçıvanlı sahibkarlar, təsərrüfatçılar üçün önəmindən danışıb: – Muxtar respublikada aqrar sahənin inkişafı əsas hədəflərdən biridir. Bu məsələ məşğulluq imkanlarını artırmaqla yanaşı, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına, o cümlədən bölgənin iqtisadiyyatının gücəndirilməsinə təsir edəcəkdir. Bu məqsədlə biz inkişaf xarakterli bütün imkanlardan istifadə etməyə əsas veririk. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, fermerlər, ailə təsərrüfatçıları olaraq ilk dəfə idi ki, Bakı şəhərində keçirilən beynəlxalq bir tədbirdə birgə iştirak edirdik. Bu tədbir sırf kənd təsərrüfatı ilə bağlı idi, həm də, eyni zamanda qida sənayesi sərgisi həyata keçirilirdi. Kənd Təsərrüfatı sərgisi beynəlxalq olaraq Azərbaycanda 16-cı, Qida Sənayesi sərgisi isə artıq 28-ci idi. Sərgilərdə 60 nəfər heyətlə, çoxlu sayda bir-birindən dəyərli, müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları ilə biz muxtar respublikanı təmsil etdik. Həm hazır məhsullar, həm də, eyni zamanda təbii bitkilər pavilyonumuzda yer almışdı. Düşünün ki, tək Sədərək rayonundan bir ailə təsərrüfatçısı 37 növdən çox məhsulu sərgiyə çıxarmışdı. Dağ bitkiləri bütün sərgi iştirakçılarının diqqətini çəkirdi. Bundan başqa, buradan sazan balığı da aparmışdıq. Həm də diri halda. Öncədən bildirmişdilər ki, diri halda balığı Naxçıvandan Bakı şəhərinə çatdırmaq mümkün olmayacaq. Bunu xüsusilə hava nəqliyyatından istifadə zamanı oksigen çatmazlığının yaranacağı ilə əlaqələndirirdilər. Lakin biz metodologiyanı ətraflı təhlil etdik, balıqları buradan canlı şəkildə apararaq sərgidə nümayiş etdirə bildik. Balıqla yanaşı, arıçılıq məhsulları, konservləşdirilmiş məhsullar, turşular, şirələr, mineral içkilər, quru meyvələr, tərəvəzlər, o cümlədən tezyetişən əriklər, gilas, gilənar, çiyələk, kartof, alma, qablaşdırılmış dərman bitkiləri, süd və ət məhsulları pavilyonda yer almışdı. Naxçıvana xas təbii, şəfalı sulardan “Çınqıllı”, “Sirab”, “Badamlı” xüsusi yer tuturdu. Yurdumuza məxsus Naxçıvan göycəsi, duzu, trüfeli, qovurması da sərgiyə gələn bütün xarici və yerli şirkətlərin böyük marağına səbəb oldu. Hələ sərgiyə hazırlıq günü, pavilyonun hazırlanması zamanı hər tərəfdən insanların bizim pavilyona xüsusi marağı hiss olunurdu. Yeri gəlmişkən bir məsələni də qeyd edim ki, bizim pavilyon digərlərindən dizaynına görə də tamam fərqlənirdi. Bilirsiniz ki, bu il Ümummilli Lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. Pavilyonumuzun mərkəzində xüsusi bir hissəni bu məqsədlə ayırmışdıq. O hissədə Ulu Öndərin çox gözəl, gülümsəyən rəsmi var idi. Rəsmin özü belə insanları pavilyona cəlb edən amillər sırasında idi. Ulu Öndərin rəsmi Naxçıvanın əsas dağlarından olan Haçadağın cizgisi ilə əhatələnmişdi. Hansı ki o cizgilər “Orqanik Naxçıvan”ın loqosundan tərtib edilmişdi. Həmçinin həmin hissədə – monitorda Naxçıvanın məhsulları, istehsal prosesləri, təsərrüfatda yetişdiricilik barədə davamlı olaraq videoçarx göstərilirdi. Həm pavilyonun dizaynının gözəlliyi, həm aqrar sahənin tərənnümü, həm də orqanik məhsullar bütün ziyarətçiləri özünə çəkirdi.

Xəyalə Dadaşova sərgidə ölkə Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakının təsərrüfat adamlarına, sahibkarlara böyük ruh yüksəkliyi gətirdiyini vurğulayaraq dedi ki, çörək bolluq, bərəkətlik rəmzidir! Məhz Mehriban xanım Əliyeva da pavilyonda ilk olaraq Naxçıvan çörəyinə diqqət yetirdi. Cənab Prezident balıqlara xüsusi diqqət yetirərək “Araz çayındandır?” sualını verdi. Ümumiyyətlə, ölkə başçısı pavilyonumuzda sərgilənən bütün məhsullara, mineral sulara, içkilərə, dağ bitkilərinə, qovurmaya önəm verdi. Ordubad limonunun məşhur olduğunu söylədi. Ordubad limonunu buradan dərmədən, ağac üzərində aparmışdıq. Fürsətdən istifadə edərək cənab Prezidentə ağacdan dərərək təzə-tər limon hədiyyə etdik. Çox sağ olsun ki, bizim hədiyyəmizi qəbul etdi və bütün naxçıvanlılara salamlarını göndərdi. Bu bizim üçün çox böyük uğur və qürurverici idi. Sərgidə cənab Prezidentin Naxçıvan məhsullarına xüsusi diqqəti, önəmi naxçıvanlılar, təsərrüfatçılar, sahibkarlar üçün böyük stimuldur, dəstəkdir. Fermerlərimiz, ailə təsərrüfatçılarımız bu hadisədən çox təsirlənmişdilər, ruh yüksəkliyi hər kəsin simasından görünürdü. Bununla da biz Naxçıvanın məhsullarını Bakı şəhərində yüksək səviyyədə təqdim edib, cəmiyyətə göstərə bildik. Ən əsası o idi ki, biz heç bir qatqı istifadə edilmədən, ekoloji təmiz mühitdə istehsal olunan orqanik Naxçıvan məhsullarını ilə ölkə başçımızın qarşısına çıxdıq. Ölkə başçısının göstərdiyi diqqət və qayğı nəticəsində inanıram ki, qeyd edilən məsələlər Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafına öz səmərəsini verəcəkdir.

Kənd təsərrüfatı nazirinin müavini qeyd etdi ki, sərgidə Naxçıvan məhsullarının orqanik olması səbəbindən alıcılıq qabiliyyəti yüksək idi, yerli və xarici şirkətlər, o cümlədən ziyarətçilər tərəfindən çoxlu sifarişlər edilirdi. Artıq sərginin ikinci günündə məhsullarda kifayət qədər azalma müşahidə olunurdu. Buna baxmayaraq, fermerlər, ailə təsərrüfatı sahibləri çalışırdılar ki, apardıqları məhsulları təmənnasız olaraq ziyarətçilərə hədiyyə etsinlər. Sərgilərdə kənd təsərrüfatına dair müxtəlif aspektli panellər də keçirilirdi. Panellər innovasiyayönümlü idi. Panellərdən biri də orqanik kənd təsərrüfatı məhsullarına aid edilmişdi ki, həmin paneldə mənim də iştirakım nəzərdə tutulmuşdu. Bu iştirak “Orqanik Naxçıvan” məhsullarının tanıtımına yönəlmişdi. Həmin paneldə mənimlə yanaşı, İtaliya-Azərbaycan Ticarət Palatasının (İTAZERCOM) prezidenti Manuela Traldi də iştirak edirdi. Manuela Traldi Naxçıvanda orqanik məhsulların yetişdiriciliyinin gündəmdə saxlanılmasına, önəm verilməsinə çox şad olduğunu bildirdi və qeyd etdi ki, belə görünür, Azərbaycanda bu dəqiqə ən böyük orqanik məhsul yetişdiriciliyi Naxçıvandadır. Və bundan irəli gələrək belə bir təklif irəli sürdü ki, hər il orqanik kənd təsərrüfatı məhsulları üzrə beynəlxalq konfrans Naxçıvanda keçirilsin. Düşünürəm ki, biz bu təklifin dəyərləndirilməsi istiqamətində müvafiq işlər görəcəyik və ola bilsin ki, növbəti illərdə belə bir konfrans Naxçıvanda təşkil olunsun.

Xəyalə Dadaşova Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin sərgidə iştirak edən sahibkarlar, ailə təsərrüfatçıları ilə görüşünə, görüşdə müzakirə olunan məsələlərə də toxunaraq dedi ki, bu görüş hər bir sahibkarın, ailə təsərrüfatçısının ürəyincə oldu. Ailə təsərrüfatçıları özləri Naxçıvan Muxtar Respublikasında ilk dəfə belə səmimi atmosferdə, şəraitdə keçirilən görüşdə iştirak etdiklərinə və təşəkkür aldıqlarına görə sevindiklərini bildirirdilər. Onlar qeyd edirdilər ki, ilk dəfədir, onlara sərbəstlik verilməklə fikirləri, təklifləri dinlənilir və təşəkkür edilir. Xəyalə Dadaşova, eyni zamanda səlahiyyətli nümayəndə tərəfindən fermerlərə, ailə təsərrüfatçılarına, xüsusən orqanik məhsul yetişdirilməsinə önəm verilməsi, Naxçıvanda ənənəvi olan bitkilərin, təbiliyin qorunub saxlanılması, kəmiyyətin deyil, keyfiyyətin gündəmə gətirilməsi, məhz bunun nəticəsində həm daxili bazarın tənzimlənməsi, o cümlədən ixrac potensialının artırılması, ixrac coğrafiyasının genişləndirilməsinə dair tövsiyələrin verildiyini bildirdi. Bununla yanaşı, gələcəkdə də bu kimi məsələlərə diqqət yetirilməsi, təkcə Azərbaycan daxilində deyil, eləcə də digər ölkələrdə tədbirlərə qoşulmağın vacibliyini və hətta fermerlər arasında rus və ingilis dillərinin inkişaf etdirilməsi üçün müvafiq dəstəyin göstərilməsi üçün tapşırıqlar verildiyini dedi: “Tapşırıldı ki, gələcəkdə bizim fermerlərin digər ölkələrə çıxışı təmin olunsun. Təbii ki, bu inkişaf nə qədər çox olacaqsa, Naxçıvan Muxtar Respublikasında aqrar inkişaf da o qədər artacaqdır. Və bu tapşırıqlar təkcə məhsul yetişdiriciliyi ilə kifayətlənmədi, bu prosesə təkan verəcək məsələləri, torpaqların qorunmasını, suvarma suyuna diqqət yetirilməsini, qənaətlə istifadə, intensiv üsullara keçid, mütərəqqi metodlara üstünlük verilməsini də əhatə etdi. Həmçinin orqanik məhsul yetişdiriciliyində qablaşdırma, etiketləmə məsələlərinə də diqqət yetirilməsi, eyni zamanda fitosanitar, epizootik təhlükəsizliyin qorunması, Naxçıvana idxal olunan toxum, ting, materiallarda, eləcə də heyvan mənşəli məhsullarda xəstəliklərin, digər zərərli orqanizmlərin daxil olmamasının zəruriliyi, vacibliyi sahibkarlara tövsiyə edildi. İnanıram ki, bu görüş bizim fermerlər üçün çox böyük bir stimul olacaq. Görüş zamanı onların simasından da bu müsbət dəyişikliyi, xoş əhvali-ruhiyyəni hiss etmək çətin deyildi. Hər kəs həm sərgidə iştirakı, həm də səlahiyyətli nümayəndə tərəfindən qəbulu çox rəğbətlə qarşıladı. Düşünürəm ki, gələcəkdə də belə sərgilərdə yüksək səviyyədə iştirak edəcəyik və Naxçıvanda aqrar sahənin inkişafını müasir formada cəmiyyətə təqdim etmiş olacağıq”.

**Nail ƏSGƏROV**

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub



Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar təşkil olunan tədbirlər çərçivəsində 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Kəngərli Rayon İcra Hakimiyyəti Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə “Uşaqlar bizim gələcəyimizdir” adlı tədbir keçirib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül qoyulub, əziz xatirəsi ehtiramla yad edilib. Tədbir Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi, Ümummilli Liderimizin, akademik Zərifə xanım Əliyevanın və şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününün yaranması tarixindən, tədbirin əhəmiyyətindən bəhs edib, muxtar respublikada uğurla həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan ətraflı danışıblar. Qeyd ediblər ki, ölkəmizdə uşaq problemləri hər zaman diqqət mərkəzində saxlanılıb.

Daha sonra Kəngərli rayonu üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Yusif Babayev yaxşı təhsil almaları, sağlamlıqlarının qorunması, dövlətin uşaqlara göstərdiyi diqqət və qayğısının təcəssümü olduğunu qeyd edib, bütün şagirdlər adından minnətdarlığını bildirib.

Tədbirdə Kəngərli rayonu üzrə 2022-2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlar təşkilatçılar tərəfindən hədiyyə və Fəxri fərmanla təltif olunublar. Eyni zamanda şəhid ailələrinin uşaqlarına hədiyyə təqdim edilib.

Uşaq musiqi və tam orta məktəblərin şagirdlərinin, eləcə də uşaq bağçalarının balaca fidanlarının ifasında Ulu Öndərə həsr edilmiş şeir, mahnı, eləcə də rəqs nömrələri nümayiş etdirilib, istedadlı uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Dövlət satınalmalarının təşkili ilə bağlı tədbir keçirilib



Naxçıvan Muxtar Respublikasının 2023-cü ilin yanvar-aprel aylarının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin qarşısına mühüm vəzifələr qoyulub. Bu vəzifələrin icrası ilə bağlı İqtisadiyyat Nazirliyində Tədbirlər Planı hazırlanıb, nazirliyin struktur bölmələrinə konkret tapşırıqlar verilib. Əsas tapşırıqlardan biri də satınalmaların şəffaf formada qurulması, bu sahədə təbliğat və maarifləndirmə işinin gücləndirilməsi, sahibkarların bu işə təşviq edilməsidir.

Bu məqsədlə mayın 25-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində muxtar respublikada fəaliyyət göstərən dəftərxana və ofis ləvazimatlarının satışı mağazalarının sahibkarlarının iştirakı ilə tədbir keçirilib.

Tədbirin əsas məqsədi dövlət satınalmaları sahəsində mövcud vəziyyətin müzakirəsi və sahibkarların problemlərinin dinlənilməsi olub.

Tədbirdə çıxış edən İqtisadiyyat Nazirliyinin Satınalmalar şöbəsinin müdiri Seymur Cəfərov dövlət büdcəsindən ayrılan vəsaitin səmərəli istifadəsini təmin etmək üçün dövlət satınalmalarının optimal və düzgün təşkil olunmasının vacibliyini vurğulayıb. Bildirilib ki, satınalma zamanı, ilk növbədə, dövlət mənafeyi qorunmalı, vəsait səmərəli istifadə olunmalı, dövlətin gələcək inkişafını təmin edən üsullarla həyata keçirilməlidir.

Tədbirdə dövlət satınalmalarının keçirilməsində biznes subyektlərinin, o cümlədən kiçik və orta biznes subyektlərinin iştirak imkanlarının genişləndirilməsinin vacibliyi vurğulanıb, sahibkarlar *www.etender.gov.az* satınalma portalı və ondan istifadə barədə məlumatlandırılıb.

Sonda müzakirələr aparılıb, sahibkarların problemləri dinlənilib, mübahisəli suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Ödənişsiz tibbi aksiya davam edir



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və “Məlhəm” Beynəlxalq Hospitalın birgə təşkilatçılığı ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Sevgi ən böyük məlhəmdir!” şüarı altında keçirilən tibbi aksiya davam edir.

Dünən də daxil olmaqla, 26 və 27 may 2023-cü il tarixlərdə baş tutacaq aksiyanın ilk günü “Məlhəm” Beynəlxalq Hospitalın yüksəkixtisaslı həkim heyəti tərəfindən 303 muxtar respublika sakini tibbi müayinədən keçib. Müayinə olunanlardan 32-si oftalmoloq Leyla Qəhrəmanova, 28-i endokrinoloq Gülhar Əliyeva, 32-si kardioloq Mehriban İsgəndərova, 20-si uroloq Rəşad Məmmədov, 11-i pulmonoloq Könül Məmmədova, 30-u travmatoloq ortoped Cavid Cəfərov və 22-si isə terapevt Sinaxanım Hüseynzadə tərəfindən müayinə edilib.

Aksiya çərçivəsidə müraciət edən vətəndaşlardan ödənişsiz olaraq 312-si laborator analiz, 34-ü isə radioloji müayinədən yararlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Mahirə Nağı qızı Hüseynova həm gözəl pedaqoq, həm istedadlı şairə, həm də vətənpərvər ziyalı, zəhmətkeş alimdir. Filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü Mahirə Hüseynova Azərbaycanın ziyalılar yurdu olan Naxçıvanda, Kəngərli rayonunun Sust kəndində dünyaya göz açıb. Gözəl bir pedaqoq kimi "İlin ən yaxşı müəllimi" adını alıb, Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilib. Alim kimi ana dilimizin tədqiqi sahəsində çoxsaylı qiymətli əsərlər ərsəyə gətirib. Elm sahəsindəki xidmətlərinə görə "İlin alimi" media mükafatını alıb. Çoxsaylı monoqrafiya, kitab və məqalələrin müəllifi olan Mahirə xanım, öz sözləri ilə desək, "öyrədənlərin öyrədənidir".*

# Söz dünyasının lövbər adamı – Mahirə Nağıqızı

Mahirə xanım Azərbaycan elminin inkişafına xidmət edən sanballı alimlərdən biridir. Onun dilçilik sahəsində apardığı tədqiqatlar və çap etdirdiyi əsərlər mühüm yenilikləri və verdiyi töhfələri ilə səciyyəvidir. Alimin 2012-ci ildə uğurla müdafiə etdiyi "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda dissertasiya işi ilə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Alimin müxtəlif mövzuları əhatə edən 26 kitab, monoqrafiya, dərslik, metodiki vəsait və sair kimi əsərləri onun yaradıcılıq əhatəsini və elmi maraq dairəsini təzahür etdirir. "Ulu Öndərimizin natiqlik məharəti", "Ulu Öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir", "Missiya", "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" (S.Sadiqova ilə birlikdə) kimi əsərlərində Azərbaycan xalqının Ümummilli Lideri, fenomenal şəxsiyyət Heydər Əliyevin nəsillərə örnək olan həyatı və misilsiz xidmətləri milli düşüncəli alim baxışı ilə əhatəli şəkildə təqdim olunmuşdur. M.Hüseynovanın böyük zəhmətlə ərsəyə gətirdiyi "Həsən Mirzəyev və Azərbaycan dilində feil", "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri", "Muxtar Hüseynzadə və Azərbaycan dilinin morfologiyası", "Əbdüləzəl Dəmirçizadə və Azərbaycan dilinin fonetikası" kimi əsərlərində Azərbaycan elminin üç ağır sütununu təşkil edən görkəmli alimlərimiz və onların elmimizi zənginləşdirən yaradıcı fəaliyyətlərindən bəhs edilmişdir. Müəllimimiz və görkəmli alimimiz olan Mahirə xanım Hüseynovanın elmi-tədqiqat və yaradıcılıq əhatəsi daha da genişlənərək Azərbaycan dilçiliyinin ən aktual, problematik sahə və məsələlərini əhatə etmiş, çoxsaylı elmi əsərlərin ərsəyə gəlməsi ilə nəticələnmişdir. "Aşıq və el şairlərinin fonopoetikası", "XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası (Dərələyəz mahalı üzrə)", "Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığında dialektizmlərin öyrədilməsinə dair (Dərələyəz mahalı üzrə)", "Aşıq və el şairlərinin leksikası", "Aşıq və el şairlərinin poetikası", "Üslubi morfologiya", "Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" və çoxsaylı əsərləri elmimizə qazandırdığı töhfələri ilə diqqəti cəlb etməkdədir. Alim çox məharətlə Azərbaycan xalqının bütün mənəvi mədəniyyəti, dəyərləri və mirasını qarşılıqlı elmi-tədqiqat müstəvisində birləşdirmiş, olduqca ciddi əhəmiyyət kəsb edən nəticələrlə zəngin monoqrafiyalar ortaya qoymuşdur. Əslən Qərbi Azərbaycanımızdan olan tanınmış elm adamı bölgənin folklor, aşıq mühiti, el sənətkarlarının yaradıcılığı zəminində ana dilimizin bir sıra məsələlərini ədəbi dil tədqiqatları ilə bir məntiq müstəvisində bağlamağa nail olmuşdur.




Mahirə Nağıqızı həm də istedadlı, təbli bir şairədir. Elmi səriştəsi ilə sənətkarlıq səriştəsi bir-birini tamamlayaraq onu ustad şairə kimi söz aləminə tanıtmış, yaradıcılığını akademik İsa Həbibbəylinin təbirincə desək, "haqqa çağıran söz" olaraq yoğurmuşdur. Şairə "Mənim anam", "Yaşadacaq anam məni", "Ana kəndim Xalxalım", "Sözün hikməti", "Analı dünyam", "Haqqa çağıran səs", "Bayatılar", "Vətəndir" bədii yaradıcılıq əsərləri, şeir kitabları ilə geniş oxucu kütləsi tərəfindən sevilmişdir. Mahirə Nağıqızı bir şairə kimi istedadla ərsəyə gətirdiyi əsərlərinə görə "Qızıl qələm" mükafatı almışdır.

Söz var su kimidir, lətafəti ilə, şırıltısı ilə axıb insanı özünə məftun edir, söz var daş kimidir, qaya ağırlığı daşıyır. Müasir ədəbi prosesdə öz qələmi və imzası ilə tanınmış Mahirə Nağıqızının şeiriyyəti də məhz belədir: bəzən su kimi axıcı, bəzən də daş kimi ağır. Mahirə Nağıqızının qəlbinin zənginliyi, ruhunun dərinliyi, sözünün qüvvəti və əlvanlığı, məhəbbətinin məğzi ilə sözündə, bədii irsində əksini tapıb. Şairə Mahirə Nağıqızının yaradıcılığı üslub püxtəliyi, ifadə gözəlliyi, dil zənginliyi baxımından da özünəməxsus və mahiranədir. Şairənin bədii irsində ana mövzusu başlıca yerdə gəlir, hər sözünün başında durur, yaradıcılığında əzəmətli bir obraz kimi canlanır. İstər Vətən, istərsə də bizi dünyaya gətirən və Vətənlə bağlayan ana məhəbbəti bu yaradıcılığın fövqündə dayanır:

*Atamla yanaşı daş qaldırardı,*
*Deyərdi bu daşlar ocaq daşıdı.*
*Bezmədi, qəlbində nə gücü vardı,*
*Anam sinəsində ocaq daşıdı.*

Şairə ana məhəbbətindən, ana nəvazişindən məharətlə söz açır. Bütün analarımızın simasını, həyatını və sair şair yaradıcılığı möhtəşəm və əzəmətli ana obrazında canlandırıb. "Çöllərdə yavanlıq axtaran", "daş əlləri ilə özünə sığal verməyə utanan və bu sığala yadırğayan", "bütün gəlinliyini corab toxuyub, paltar yamayıb, çörək bişirib, ev təmizləyən", "daşı daş üstə qoyub, amma ürəyindən daş asmayan" əzəmətli, fədakar bir ANA obrazı, siması canlandırılıb misra-misra, söz-söz.

Hər əldə bir ayrı dad olduğu kimi, hər qələmdə də bir ayrı məharət var. Hər qələm öz qəlbinin, hissinin söz duyumu və dadını vərəqlərə tökür. Mahirə Nağıqızının şeiriyyətinin elə bir mərhəmliyi, məlhəmliyi, qəlbə yaxınlığı var ki, bu qədər cana yaxınlığın sirri haqqında düşünməyə bilmirsən. Mahirə xanımın şeir dilində ana dilimizin qanadlı sözlər xəzinəsindən məharətlə istifadə edilmişdir. Şair şeirlərindən birində yazır:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən, üzürsən eşq dənizimdə,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

Vətənə məhəbbətin min-min sözdə ifadə tapdığı eyniyyətin orijinal, bənzərsiz bir nümunəsi qarşımızda dayanıb. Vətən siyasi cəhətdən konkret sərhədlərlə yer tapır, lakin bir vətəndaş, insan qəlbində Vətən və ona məhəbbət sonsuz, sərhədsizdir. Mahirə Nağıqızı böyük sənətkarlıq məharətilə obrazlı ifadələrini ən orijinal, özünəməxsus ifadə tapıntıları ilə əks etdirməyə müvəffəq olub. Dərin bir qəlb göynərtisi ilə yazılan "Şəhid nəğməsi" şeirində ürək sızıltısı ilə milli qürur bir-birinə yovuşuq təzahür tapıb:

*Burdan yavaş gedin, astadan keçin,*
*Qəbirlər titrəyər, daş dinə bilər.*
*Bir güllə gücünə sakit olanlar,*
*Bir addım səsinə diksinə bilər.*

Mahirə Nağıqızı şəhidləri "sağlığında döyüşən əsgər", məzarlarını isə "Vətənin istehkamı" adlandırır.

O, "Şəhid nəğməsi", "Son döyüşə hazır ol", "Al bayrağım" və sair şeirlərində Vətən məhəbbəti, qəhrəmanlıq, fədakarlıq və vətənpərvərlik hisslərini ülviləşdirərək ifadə edir. "Son döyüşə hazır ol" şeirində hələ 44 günlük Vətən müharibəsindən, şanlı Zəfərimizdən əvvəl xalq həmişə özünün torpaqlarımızın işğaldan azad edilməsi haqqında arzularını dilə gətirib, bu döyüşü son döyüş, Şuşaya olan səfəri müqəddəs pirimizlə görüş adlandırıb:

*Azərbaycan əsgəri, yolun Şuşaya gedər,*
*O yürüşün naminə son döyüşə hazır ol!*
*İntizarda Laçındı, Zəngilandı, Kəlbəcər,*
*Pir görüşün naminə, son döyüşə hazır ol!*

Bayraq mövzusunda yazılan çoxsaylı şeirlər içərisində Mahirə xanım "Al bayrağım" adlı şeirində milli bayrağımızın rənglərini ruhumuzun rəng çaları kimi xarakterizə etməklə bərabər, ruhumuz üçrəngli uca bayrağımızın dirəyi adlandırır:

*Min illərdir, içimiz rənglərini göyərdir,*
*Yaşamaq haqqımızın əbədi rəmzisən bir.*
*Ruhumuz-qəlbimizdə asılan dirəyindir,*
*O dirəkdə uca dur, qal, bayrağım, dalğalan!*

Ümumiyyətlə, Mahirə Nağıqızı şeiriyyət dilinə çox məsuliyyətlə yanaşmış, ana dilinin bütün imkanlarından məharətlə faydalanmış, orijinal bədii məcazlar ortaya qoymuşdur. Onun yaradıcılığındakı Vətən sevgisi təkcə mövzu-tematika ilə deyil, həm də ana yurdun doğma, şirin dili ilə, onun şəhdi-şəkəri, imkanlarından uğurla, məharətlə istifadə ilə nümayiş etdirilir. Müəllif çox təsiredici və orijinal cinaslar yaradır, təzadlar ortaya qoyur, bədii təkrirlər işlətməklə şeiriyyətini əlvanlaşdırır, gözəlləşdirir və məna, hikmət verir. "Nazlı, nazlı", "Niyə?", "Əllərin", "Qəlbində bir yuvam olsa", "Gözəl", "Həmən yol" və digər şeirlərində, sözün əsl mənasında, ustalıqla qurulmuş söz oyunu və məharətli dil istifadəsini görmək mümkündür. Həm də ayrıca bir bədii məziyyət burasındadır ki, istedadlı müəllif həm estetik cəhətdən gözəl, mükəmməl söz zənginliyi yaratmış, həm də mənaca dərin, hikmətli, yüksək obrazlılığa malik fikirlər ifadə etməyə müvəffəq olmuşdur.

Elə buna görədir ki, onun yaradıcılığı, üslubu, dili, eləcə də bədii-estetik cəhətdən mükəmməl əsərləri bir çox bəstəkarlarımızın da diqqətini cəlb etmiş, əsərlərinə nə qədər gözəl mahnılar bəstələnmişdir. "Azərbaycana", "Azərbaycan", "Ata Heydər, oğul İlham", "Vətən", "Layla çal, yatım, ana", "Ana", "Ay ana", "Dolanım", "Balam" və başqaları bu gün də sevilə-sevilə dinlənilən ən gözəl mahnılarımızdandır.

Ədəbiyyatın ən başlıca mövzularından birini təşkil edən məhəbbət mövzusunda Mahirə Nağıqızının da çox orijinal nümunələri yer alıb. Yeni dövrün ədəbiyyat-şeir yolçularından olan istedadlı şair Mahirə Nağıqızının özü demiş, "dərdilə bəxtəvər adam", sözün ucalığına doğru yol gedən söz adamıdır. Mahirə xanım haqqında gözəl sözlərini yazmış filologiya elmləri doktoru Qurban Bayramovun qeyd etdiyi kimi, "Mahirə Nağıqızı Hüseynova bir alim, bir şair, bir pedaqoq kimi qazandığı bütün statuslar onun halal-hümmət haqqıdır, halal şərəfidir, halal şöhrətidir".

**Zülfiyyə İSMAYIL,**
**Ramiz QASIMOV,**
***AMEA Naxçıvan Bölməsinin dosentləri***

## *"Arşın mal alan"* tələbələrin ifasında təqdim olunub



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "SABAH" qruplarının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan ikigünlük incəsənət festivalının iştirakçıları muxtar respublikamızın tarixi abidələrini, o cümlədən Əshabi-Kəhf ziyarətgahı, Möminə xatın, Hüseyn Cavid türbələri və digər tarixi yerləri ziyarət edərək abidələrin tarixi, qorunması və bərpası haqqında məlumatlandırılıblar.

Şərqin mühüm memarlıq abidəsi olan Möminə xatın türbəsi, Açıq Səma Altında Muzey Kompleksi və Xan sarayı qonaqların marağına səbəb olub.

Sonra qonaqlar Naxçıvan Dövlət Milli Dram Teatrının qarşısında müasir və klassik musiqilər səsləndirib, pantomim səhnəcikləri, qılınc döyüşləri, estrada musiqisi, şeir və rəqs nömrələri, rəssamlıq, xalçaçılıq, keramika, qobelen və müvafiq incəsənət nümunələrini izləyiblər. "SABAH" qrupları tələbələrinin ifasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan kikboksçularından dünya kubokunda uğurlu debüt

Türkiyənin İstanbul şəhərində Dünya Kikboksinq Təşkilatları Assosiasiyası (WAKO) tərəfindən "VIII Turkish Open WAKO World Cup" adlı turnir keçirilib. Yarışa Türkiyə ilə yanaşı, 35 ölkəni təmsil edən idmançılar qatılıb.

Naxçıvan Kikboksinq Federasiyasının məşqçisi Etibar Qəribovun rəhbərliyi ilə muxtar respublikadan 3 idmançı Azərbaycan komandasının tərkibində yarışa qatılıb. İlk dəfə belə bir nüfuzlu yarışda iştirak etməsinə baxmayaraq, onlardan ikisi ümidləri doğruldaraq mükafatçılar sırasına düşə bilib.



İnci Allahverdiyeva yeniyetmə qızların yarışında "low kick" versiyasında 60 kiloqram çəki dərəcəsi üzrə 3 görüş keçirib. Yalnız final qarşılaşmasında məğlubiyyətlə üzləşən idmançımız gümüş medala layiq görülüb. Qənbər Nağıyev isə eyni versiya və çəkidə kişilər arasında bürünc medalçı olub.

Məlumat üçün bildirək ki, Azərbaycan komandasının idmançıları 13-ü qızıl, 16-sı gümüş və 22-si bürünc olmaqla, ümumilikdə, 51 medal əldə ediblər.

## Elan

Şahbuz Rayon Təhsil Şöbəsi təsərrüfat və dəftərxana ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

• Maraq məktubu

• Malsatanın satdığı təsərrüfat və dəftərxana ləvazimatları haqqında məlumat.

Qeyd olunmuş sənədlər toplusunu 30 may 2023-cü il saat $18^{00}$-a kimi Şahbuz Rayon Təhsil Şöbəsinə təqdim etmək lazımdır.

***Şahbuz Rayon Təhsil Şöbəsi***
***Əlaqə telefonu: (036) 543-02-35***
***050-599-15-95***

## Açıq havada idman yarışları keçirilib

Naxçıvan şəhərindəki "Böyük bağ" adlanan istirahət parkında "Heydər Əliyev İli"nə həsr olunmuş "İdmanla bir gün" layihəsi reallaşıb. Layihə çərçivəsində ərazi idman ləvazimatları ilə təchiz olunmuş sektorlara bölünərək yarış meydançası yaradılıb. İştirakçılar burada istəyə görə stolüstü tennis, badminton, qaçış, qol güləşi, ağırlıqqaldırma kimi idman növləri və bir sıra idman oyunlarında bacarıqlarını nümayiş etdirmək imkanı əldə ediblər.



Hər yarışda ilk üçlüyə sahib olan iştirakçılara diplom təqdim edilib. Öz nümunəvi çıxışları ilə tədbirə xüsusi rəng qatan gimnastika növü üzrə Naxçıvan komandasının idmançıları və məşqçisi Fəxri fərmanla təltif edilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Atletika Federasiyası və "Unikal Badminton Klubu" İctimai Birliyinin birgə təşkilatçılığı əsasında həyata keçirilən layihə idmana marağı artırmaq, gənc nəslin vaxtlarının səmərəli keçməsinə zəmin yaratmaq məqsədi daşıyıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Cəlilkənd sakini Rzayev Fuad Ələşrəf oğlunun adına olan JN-$339^{A}$ inventar nömrəli, 10204018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Məmmədov Kamil Həbib oğlunun adına olan JN-$946^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 352